QANUN № 02 (352), 2024, s. 182-187 

**Qəfərli Mirtərlan Midhəd oğlu,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Transmilli cinayət hüququ" ixtisası üzrə 2-ci kurs magistrantı
E-mail: terlan.qeferli@mail.ru
**İbrahimov Elvin Mahir oğlu,**
Dövlət Gömrük Komitəsinin Akademiyasının "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr tələbəsi
E-mail: elvin.ibrahimov.huquq.111@gmail.com

**UOT 343.2/.7**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.55**

# TRANSMİLLİ CİNAYƏT HÜQUQUNUN NƏZƏRİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *transmilli cinayət, transmilli cinayət hüququ, beynəlxalq cinayət hüququ, transmilli cinayət hüququnun yurisdiksiyası, transmilli cinayətlərlə mübarizə.*

***Ключевые слова:*** *транснациональная преступность, транснациональное уголовное право, международное уголовное право, юрисдикция транснационального уголовного права, борьба с транснациональной преступностью.*

***Keywords***: *transnational crime, transnational criminal law, international criminal law, jurisdiction of transnational criminal law, fight against transnational crime.*

Hüquq ictimai münasibətlərin tənzimləyicisi olub, dövlət tərəfindən müəyyən edilən, mühafizə edilən və təmin edilən ümumməcburi, formal davranış qaydalarının məcmusudur. Qədim dövrlərdən cəmiyyət həyatının müxtəlif sahələrinə nüfuz edən hüququn müasir dövrdə texnologiyanın inkişafı və dövlətlər arasında əlaqələrin genişlənməsi nəticəsində yeni yaranmış münasibətlərin tənzimlənməsi üçün yeni-yeni sahələri yaranmışdır. R.K.Məmmədov beynəlxalq cinayət hüququnun ikinci dünya müharibəsindən sonra qəbul edilmiş beynəlxalq sənədlər əsasında yaranmasını qeyd edir və əsaslandırır ki, beynəlxalq cinayət hüququ 20-ci əsrdə cinayətkarlığın qloballaşması prosesində adekvat surətdə inkişaf etmişdir. Ən təhlükəli cinayətlər (iqtisadi, zorlama, qanunsuz gəlirlərin yuyulması, bank dələduzluğu, tamah məqsədli vəzifə cinayətləri, ilk növbədə mütəşəkkil cinayətkarlıq, terrorizm, narkotik vasitələrin və silahların qanunsuz dövriyyəsi, kontrabanda, saxta pul hazırlama, kompüter cinayətləri və s.) milli cinayətlər olmaqla qalmayıb, beynəlxalq cinayətlərə çevrilmişdir. Müəllifin qeyd etdiyi kimi, bu meyil 21-ci əsrdə də qalacaqdır və hazırda da bu fikir özünü doğruldur [2, s. 15].

Hüquq ədəbiyyatında qeyd edilir ki, "yaşadığımız dövrdə transmilli cinayətkarlıqla mübarizə sahəsində daha geniş münasibətlərin, o cümlədən milli cinayət qanunvericiliyi əsasında yeni hüquqi anlayışın meydana gəlməsi müşahidə olunur. Bu, transmilli cinayət hüququdur. Ş.T.Səmədova haqlı olaraq vurğulayır ki, "hər iki hüquq sahəsinə – beynəlxalq cinayət hüququ və milli cinayət hüququna yaxın olmasına baxmayaraq, hal-hazırda transmilli cinayət hüququ qeyd olunan hər iki hüquq sahəsini özündə bir-

ləşdirən müstəqil kompleks hüquq sahəsi kimi qəbul olunur" [3, s. 25].

Bu mənada müəllif beynəlxalq cinayət hüququ və transmilli cinayət hüququnun eyniləşdirilməsinin düzgün olmadığını vurğulayır. AR Cinayət Məcəlləsini təhlil edən müəllif belə nəticəyə gəlir ki, həmin məcəllənin 16-cı və 17-ci fəsillərində təsbit olunan maddələr, ümumiyyətlə beynəlxalq cinayətlərin təsnifatını təkrarlayır və bu normalar müvafiq beynəlxalq cinayətlərin təriflərinə əsaslanır.

Ümumiyyətlə, beynəlxalq hüquq sahəsində tədqiqat aparan müəlliflərin mövqeyinə görə, cinayətlər beynəlxalq və milli səviyyədə olmaqla iki yerə bölünür. Hüquq ədəbiyyatının təhlili əsasında beynəlxalq cinayətlər üçün xarakterik əlamətlər aşağıdakı kimi ifadə oluna bilər:

1) Beynəlxalq cinayətlər dövlətlərin ən əhəmiyyətli mənafeyinə qəsd edən hüquq pozmalarıdır, başqa sözlə, yəni onların mövcudluq əsaslarını sarsıdan, beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozan, beynəlxalq sülh və bəşəriyyətin təhlükəsizliyinə təhlükə yaradan xüsusilə təhlükəli hüquq pozmalardır.

2) Bu cinayətlər faktiki olaraq bütün beynəlxalq aləmə təsir edir və narahatlıq doğurur.

3) Bu cinayətlər dövlətlər və ya dövlətlərin rəsmi nümayəndələri tərəfindən cinayətkar məqsədlər üçün dövlət mexanizmindən istifadə etməklə törədilir.

4) Bu cinayətlər beynəlxalq ümumi hüququn subyekti kimi dövlətin beynəlxalq hüquqi məsuliyyətinə və ya milli yurisdiksiya səviyyəsində fiziki şəxslərin fərdi cinayət məsuliyyətinə səbəb olur.

5) Bu cinayətlərin qarşısını almaq üçün dövlətlər fərdi və kollektiv şəkildə güc tətbiq edə və kollektiv tədbirlər görə bilərlər .

6) Bu cinayətlər dövlətlərin müstəsna yurisdiksiyasına verilməyən cinayətlərdir [3, s. 77].

Beynəlxalq hüquq sahəsində müəlliflər arasında belə bir mövqe də irəli sürülür ki, ortaya çıxan transmilli cinayət anlayışı bu ümumi qaydanı pozur.

Muller hətta belə hesab edir ki, transmilli cinayət anlayışı hüquqi deyil, kriminoloji anlayışdır [4, p. 954].

Müxtəlif müəlliflərin mövqeləri arasında maraq doğuran yanaşma ondan ibarətdir ki, transmilli cinayət normativ deyil, funksional xarakterli termindir. Məsələn, müəlliflərdən K.Fijnaut hesab edir ki, bu termin mütəşəkkil, korporativ, peşəkar və siyasi cinayətlər də daxil olmaqla bir çox müxtəlif cinayət növlərini ehtiva edən ümumi məqsədli anlayışdır [4, p. 954]. O, həmçinin terminoloji baxımdan transmilli sözünün istifadəsinə qarşı çıxır, qeyd edir ki, əslində bütün transmilli cinayətlər dövlət sərhədlərini keçmir. Bu baxımdan o, qeyri-qanuni transsərhəd narkotik tədarükünün milli istehsaldan və transmilli mütəşəkkil cinayətkarlığın yerli iqtisadiyyatlar üzərində nəzarətinin çox hissəsinin sırf yerli xarakterindən asılılığına işarə edir. Müəllif belə nəticəyə gəlir ki, transmilli cinayət termini aldadıcıdır və bu cinayət növlərinin çoxluğuna və onun yerli və ya milli ölçüsünə heç bir haqq qazandırmır. Müəllifin bu mövqeyinin doğru olması müəyyən mənada qəbul edilsə də, o da diqqətdən kənarda qalmır ki, onun transmilli cinayətlərin xaricdə təsir göstərməsi mövqeyi bütünlüklə yerli cinayətlə bağlı olması fikrini üstələyir.

Transmilli cinayət hüququnun tərkibində həm transmilli cinayət, həm də transmilli hüquq anlayışının birləşməsi mövcuddur. Onda "Transmilli hüquq və yaxud, transmilli cinayət nədir?" sualının cavablandırılmasına ehtiyac yaranır. Müəlliflərdən Phlip Jessup yazırdı ki, transmilli hüquqa milli sərhədləri aşan hərəkətləri və hadisələri tənzimləyən bütün hüquqlar daxildir [6, p. 501].

Soyqırımı, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və buna bənzər bir çox cinayətlər beynəlxalq cinayət hüququ ilə tənzim-

lənir. Lakin elə cinayətlər də vardır ki, həmin cinayətin əhatə dairəsi bir ölkədən kənara çıxmasına baxmayaraq, biz həmin cinayətləri beynəlxalq deyil, transmilli cinayətlər adlandırırıq. Tədqiqatımızın məqsədləri üçün fikrimizcə, ilk öncə "transmilli" sözünün semantik mənasını açıqlamaq lazımdır. "Trans" hərfi mənada "boyunca", "kənarda" mənalarını, "milli" sözü isə, adından da bəlli olduğu kimi, "milliyyət" sözünü ifadə edir [7, p. 4]. Transmilli cinayətlər millətlər boyunca, yəni bir millətdən digərinə keçməklə baş verən cinayətləri özündə ehtiva edir. Məlumdur ki, dövlət yalnız öz sərhədləri daxilində yurisdiksiyaya malikdir. Hər bir dövlətin cinayətin qarşısını almaq üçün həyata keçirdiyi bu tədbirlər nəticəsində həmin cinayətlər ölkənin sərhədlərindən kənara çıxmır, lakin cinayətkarlar müxtəlif yollarla ölkənin sərhədlərini keçərək insanların orqanlarını, çirkli pulları, məlumatları və s. olmaqla göndərir, satır və ya alırlar. Onlar ya şəxsən özləri və ya başqa şəxslərdən istifadə edərək qeyri-qanuni yollarla sərhəddən keçərək bu fəaliyyəti həyata keçirirlər. Dövlətlərin də yalnız öz sərhədləri daxilində yursidiksiyaya malik olmasından irəli gələrək, bunun tənzimlənməsi üçün yeni hüquq normalarının qəbuluna ehtiyac yaranır. Bunun da nəticəsində həmin şəxslər artıq adi cinayətkarlar yox, transmilli cinayətkarlar adlanırlar.

1971-ci ildə beynəlxalq münasibətlər nəzəriyyəçiləri Nye və Keohanenin belə bir fikri irəli sürür və davamlı olaraq dəstəkləyirdilər ki, insanların, pulların və digər maddi və qeyri-maddi nemətlərin, əşyaların ölkə sərhədləri boyunca qeyri-qanuni olaraq keçirilməsinin özü də beynəlxalq hüquq pozuntuları qədər vacib əhəmiyyət daşıyır [5, p. 3, 4].

"Transmilli cinayət" termini ilk dəfə 1975-ci ildə BMT-nin Cinayətin Qarşısının Alınması və Cinayətkarların Davranışı üzrə Beşinci Konqresində BMT-nin Cinayətin Qarşısının Alınması və Cinayət Mühakiməsi Şöbəsi tərəfindən beynəlxalq sərhədləri aşan, bir neçə dövlətlərin qanunu pozan bəzi cinayət hadisələrini müəyyən etmək üçün istifadə edilmişdir [5, p. 3, 4]. 1976-cı ildə BMT-nin Cinayət meyilləri və cəza ədalət sisteminin əməliyyatları üzrə araşdırmasında transmilli cinayətin anlayışı verilmişdir. Belə ki, başlanması, törədilməsi və birbaşa və ya dolayı yolla təsiri birdən çox ölkəni əhatə edən cinayətlər transmilli cinayətlər hesab edilirdi [5, p. 3, 4]. Milli hüquq ədəbiyyatında transmilli cinayət hüququna verilən anlayış bu növ cinayətləri xarakterizə etmək üçün daha tam və dolğun təsəvvür formalaşmasına imkan verir. Ş.T. Səmədova hesab edir ki, transmilli cinayət hüququ milli sərhədləri aşan və birdən çox ölkəyə birbaşa və ya dolayısı ilə təsir edən cinayətlərə görə məsuliyyət məsələlərini tənzimləyən cinayət hüquq normalarının məcmusudur [3, s. 26].

2000-ci ildə qəbul olunmuş, 2003-cü ildə qüvvəyə minmiş BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının 3-cü maddəsinin 2-ci hissəsində cinayətlərin transmilli cinayət sayılması üçün konkret şərtlər verilmişdir [1]:

- bir dövlətdə törədilir, lakin onun hazırlanmasının, planlaşdırılmasının, istiqamətləndirilməsinin və ya nəzarətinin əhəmiyyətli hissəsi digər dövlətdə həyata keçirilir;
- bir dövlətdə törədilir, lakin birdən çox dövlətdə cinayət fəaliyyəti ilə məşğul olan mütəşəkkil cinayətkar qruplaşmanı əhatə edir;
- bir dövlətdə törədilsə də, lakin onun əhəmiyyət kəsb edən nəticələri digər dövlətdə baş verib, başqa sözlə, digər dövlətdə əhəmiyyətli təsirlərə malikdir.

Transmilli cinayətləri həm milli, həm də beynəlxalq qanunlarla tənzimlənə bilər. Lakin milli cinayətlər (ölkə daxilində baş verən cinayətlər) yalnız cinayətin baş verdiyi ölkənin öz qanunları ilə məhdudlaşır. Transmilli cinayətlərlə ölkə daxilində baş verən cinayətləri fərqləndirmək, transmilli cinayət hüququnun daha yaxşı an-

laşılması üçün əsas şərtdir. Cinayətlərin milli (dövlətdaxili) və ya transmilli cinayət olub-olmaması cinayətin harada planlaşdırılması, törədilməsi, kim tərəfindən planlaşdırılması, nəyə təsir etməsindən asılı olaraq müəyyən edilir [7, p. 7]. Məsələn, hesab edək ki, şəxs narkotik istehsalı ilə məşğuldur və həmin narkotikləri satır, lakin bunu ölkə daxilində həyata keçirir, bu zaman törədilmiş əməl ölkənin öz qanunları ilə tənzimlənəcəkdir. Əgər şəxs həmin narkotiki digər ölkələrə göndərib orada satırsa, artıq əməl transmilli cinayət hesab olunacaqdı. Ədəbiyyatda "beynəlxalq cinayət hüququ"nun "transmilli cinayət hüququ"ndan fərqləndirilməsi barədə fikirlər irəli sürürlər. Bu məqsədlə bir sıra meyarlardan istifadə edirlər. Qeyd edirlər ki, transmilli cinayətlər üçün xarakterik cəhətlərdən birincisi onun iki və daha çox dövlətdə törədilməsidir. Beynəlxalq cinayətlər isə bir ölkənin ərazisində də törədilə bilər.

İkinci cəhət beynəlxalq cinayətlərin geniş əhatə dairəsinə malik olması və bütün dövlətlərin marağına toxunmasıdır. Lakin transmilli cinayətlər dar əhatə dairəsinə malik, yalnız törədilmiş əmələ aid olan ölkələrin maraq dairəsinə aiddir. İkinci Dünya müharibəsindən sonra keçirilən 1948-ci il Girovların Məhkəməsinə əsasən, beynəlxalq cinayət – beynəlxalq səviyyədə cinayət kimi tanınan, beynəlxalq aləmdə narahatlıq doğuran ciddi məsələ hesab edilən və dövlətin müstəsna yurisdiksiyasına buraxılmayan əməllərdir. Məsələn, İkinci Dünya müharibəsində almanların törətdiyi soyqırımına görə Almaniya məhkəməsində deyil, beynəlxalq məhkəmədə mühakimə olunması nümunə ola bilər. Transmilli cinayətlər mütləq beynəlxalq cinayətlər deyil, çünki bütün transmilli cinayətlər beynəlxalq narahatlıq doğuran ciddi məsələlər deyil. Məsələn, şəxs Azərbaycandan telefon oğurlayır və Rusiyaya satmağa göndərir. Bu transmilli cinayət hamı tərəfindən cinayət kimi tanınacaq, lakin heç bir hökumət üçün ciddi narahatlıq yaratmayacaq [10].

Bəzi cinayətlər məsələn, kibercinayətlər, ekoloji cinayətlər, insan alveri və s. cinayətlər tez-tez transmilli cinayət şəklində təzahür edir. Bu transmilli cinayət hüququnun həm beynəlxalq cinayət hüququnun, həm də milli cinayət hüququnun xüsusiyyətlərini özündə əks etdirilməsi ilə şərtlənir.

Mediada verilən məlumatlara etibar etsək, 2023-cü ildə İspaniyada polisi transmilli cinayət təşkilatının 197 üzvünü ələ keçirib. Həbs edilənlərin əksəriyyətinin avropalı olmaqla 34 millətdən olduğu, onlardan 33-nün narkotik alveri, dələduzluq, seksual cinayətlər və digər cinayətlərdə ittiham olunduğu bildirilir [9]. Bəli, təcrübə təsdiq edir ki, cinayətkarın milləti və vətəni yoxdur.

"Transmilli cinayət" anlayışının "beynəlxalq cinayət", "beynəlxalq xarakterli cinayət", eləcə də "xarici elementli cinayətləri" də əhatə etməsi barədə yanaşma, fikrimizcə, daha düzgün hesab edilməlidir.

Nəzəri ümumiləşdirmələr belə nəticəyə gəlməyə imkan verir ki, "transmilli cinayətlər" anlayışı ilə bağlı dar və geniş mənada yanaşma formalaşmışdır. Bu məsələnin heç də birmənalı anlaşılmaması və s. müxtəlif fikirliliklərlə şərtlənmişdir. Fikrimizcə, dar və geniş mənada yanaşma bu məsələ ilə bağlı vahid yanaşma tam oturuşana qədər keçərli olacaqdır. Dar mənada transmilli cinayətlər dedikdə çox vaxt beynəlxalq xarakterli cinayətlər, az-az hallarda isə xarici elementli adi cinayətlər nəzərdə tutulur. Geniş mənada "transmilli cinayətlər" anlayışı "beynəlxalq cinayətləri", "beynəlxalq xarakterli cinayətləri", həm də "xarici elementli adi cinayətləri" əhatə edir [3, s. 220].

Müasir dövrdə transmilli cinayətlərin qarşısının alınması üçün yeni mübarizə üsulları formalaşmışdır. Ümumi olaraq üç əsas mübarizə üsulu mövcuddur: birtərəfli, ikitərəfli, çoxtərəfli [8, p. 19].

**Birtərəfli üsul.** Ölkə tərəfindən transmilli cinayətlərin törədilməsinin minimuma endi-

rilməsi üçün görülən tədbirləri aid edə bilərik. Həmin tədbirlərə yeni qanunların qəbul edilməsini, kompüter şəbəkəsində təhlükəsizliyin artırılmasını, yeni dövlət orqanlarının yaradılmasını və s. aid edə bilərik.

**İkitərəfli üsul.** Dövlətlər qarşılıqlı hüquqi yardım haqqında və ekstradisiya haqqında müqavilələr vasitəsi ilə tənzimləmələr həyata keçirirlər. Qarşılıqlı hüquqi yardım haqqında müqavilədə dövlətlərin bir-birinə yardım etməsi üçün müddəalar mövcuddur. Bu müqavilələrin məzmunu cinayətin araşdırılması, təqib edilməsi və cəzalandırılması ilə bağlı olur. Bu müqavilələr o zaman bağlanır ki, dövlət yalnız özü bu məsələni həll edə bilməsin. Bu tipli müqavilələrin şərtlərinə əsasən ya bir dövlət digər dövlətə müəyyən hüquqlar verir, ya dövlətə müəyyən yardımlar göndərilir, ya da ki dövlətlər arasında bu tipli razılaşmalarla nəticələnir.

**Çoxtərəfli üsul.** Bəzən ölkələr transmilli cinayətlərin araşdırılması üçün digər beynəlxalq təşkilatlarla əlaqəli şəkildə fəaliyyət göstərirlər. Həmin beynəlxalq təşkilatlara İNTERPOL, FATF, UNDOC və s. aiddir.

Aparılan təhlillər əsasında aşağıdakı nəticələri ümumiləşdirə bilərik. Transmilli cinayətlər anlayışı ilə bağlı  dar və geniş mənada yanaşma formalaşmışdır. Dar mənada transmilli cinayətlər dedikdə çox vaxt beynəlxalq xarakterli cinayətlər, az-az hallarda isə xarici elementli adi cinayətlər nəzərdə tutulur.

Geniş mənada transmilli cinayətlər anlayışı “beynəlxalq cinayətləri”, “ beynəlxalq xarakterli cinayətləri”, eləcə də “xarici elementli adi cinayətləri” əhatə edir.

Beynəlxalq cinayət – beynəlxalq səviyyədə cinayət kimi tanınan, beynəlxalq aləmdə  ciddi narahatlıq doğuran, dövlətlərin ən mühüm mənafelərinə qəsd edən, onların mövcudluğunun əsaslarını sarsıdan və dövlətin müstəsna yurisdiksiyasına buraxılmayan  əməllərdir. Transmilli cinayətlər mütləq şəkildə beynəlxalq cinayətlər deyildir, çünki bütün transmilli cinayətlər beynəlxalq səviyyədə narahatlıq doğuran, dövlətlərin ən mühüm həyati maraqlarına qəsd edən xüsusi təhlükəli cinayətlər deyildir.

**İstifadə edilmiş mənbələr:**

1. BMT-nin ″Transmilli mütəşəkkil cinayətkarlığa qarşı″ Konvensiyasının, onu tamamlayan ″İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında″ və ″Miqrantların quru, dəniz və  hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı″ Protokolların təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu // 13 may 2003-cü ildə qəbul edilmişdir: [Elektron resurs]/URL:https://e-qanun.az/framework/2198

2. Məmmədov, R.K. Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi.  – Bakı: NAT CO MMC, – 2012. – 312 s.

3. Səmədova Ş..T Transmilli cinayət hüququnun nəzəri və praktiki problemləri . Monoqraiya – Bakı: Mütərcim, – 2023. – 304 s.

4. Neil Boister. Transnational Criminal Law? // EJIL, – vol. 14, No. 5, – 2003. – p. 953–976.

5. Neil Boister. An Introduction To Transnational Criminal Law // Great Clarendon Street, Oxford, OX2 6DP, United Kingdom, – 2012.

6. Roger Cotterrell. What Is Transnational Law? // Law & Social Inquiry, – vol.37, 2012 (Issue 2), – p. 500–524.

7. Transnational Criminal Law, 2016, Iraq Legal Education Initiative (ILEI), Stanford Law School.

8. Transnational Criminal Law, 2016, Iraq Legal Education Initiative (ILEI), Stanford Law School. .

9. https://www.e-huquq.az/az/news/dunya/74767.html

10. https://study.com/learn/lesson/transnational-crime-overview examples.html#:~:text-=What%20is%20the%20difference%20between,grave%20concern%20to%20other%20countrie.

**Гафарлы Миртарлан Мидхад оглу**
**Ибрагимов Эльвин Махир оглу**

**ТЕОРЕТИЧЕКСИЕ ВОПРОСЫ ТРАНСНАЦИОНАЛЬНОГО УГОЛОВНОГО ПРАВА**

**РЕЗЮМЕ**

В статье широко анализируются теоретические взгляды по транснациональному уголовному праву, а также существующие правовые нормы относительно этого вопроса. В условиях современной глобализации, научно-технического прогресса, применения инновационных методов в общественной жизни созданы условия для выхода преступников за пределы государства и расширения территориальных границ преступности. В этом смысле борьба с транснациональной преступностью стала еще более актуальной, что создало необходимость разработки новых инновационных методов борьбы с ней и их применения на практике. Авторы поставили перед собой цель сформулировать понятие транснациональных преступлений и определить критерии отличия этих преступлений от преступлений международного характера. Для достижения этой цели были последовательно анализированы теоретические положения, связанные с понятием транснациональных преступлений, определены их масштабы и выяснены вопросы, имеющие существенное значение.

**Gafarli Mirtarlan Midhad**
**Ibragimov Elvin Mahir**

**THEORETICAL ASPECTS OF THE TRANSNATIONAL CRIMINAL LAW**

**SUMMARY**

The article broadly analyzes theoretical views on transnational criminal law, as well as existing legal norms regarding this issue. In the conditions of modern globalization, scientific and technological progress, and the use of innovative methods in public life, conditions have been created for criminals to leave the state and expand the territorial boundaries of crime. In this sense, the fight against transnational crime has become even more urgent, which created the need to develop new innovative methods of combating it and their application in practice. The authors set themselves the goal of formulating the concept of transnational crimes and defining criteria for distinguishing these crimes from crimes of an international nature. To achieve this goal, theoretical provisions related to the concept of transnational crimes were consistently analyzed, their scope was determined, and issues of significant importance were clarified.

**Redaksiyaya daxilolma tarixi: 20.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 22.02.2024**
**Çapa qəbul olunma tarixi: 24.02.2024**